# MƏNƏVİ DƏYƏRLƏR MİLLİ VARLIĞIN ƏSASIDIR



*Xəliyəddin XƏLİLLİ*

Elmlər tarixində ən yüksək qiymətləndirilən, əsas predmeti insanlıq tarixi olan tarix elmində bu gün insanın yaranması və mahiyyəti haqqında aydın, obyektiv fikir yoxdur. İnsanın yaranması haqqında dünyanın müxtəlif ölkələrində fərqli mülahizələr olmuş, marksizmin hakim olduğu sosialist ölkələrində, birinci kommunist rus imperiyasında K.Marksın əmək nəzəriyyəsi hakim olmuş, meymunun işləyə - işləyə əmək prosesində bioloji varlıqdan insana çevrilməsi həqiqət kimi şüurlara aşılanmışdır. Müstəqillik illərində də tarixşünaslığımızda meymunun adı az çəkilsə də, nəzəriyyə olduğu kimi tarixşünaslığımızda hakimdir.

Hələ ən qədimdən insanın və insanlıq tarixinin yaranması haqqında çoxsaylı mülahizə və nəzəriyyələr var idi. Bu nəzəriyyələr tarix boyu obyektiv və subyektiv tərəfləri ilə inkişaf etməkdə oldu. Böyük coğrafi kəşflərlə dünyanın bütövlükdə kəşfi və tanınması ilə toplumlar, xalqlar arasında çoxsaylı fərqliliyin meydana çıxması ilə insana, insanlıq tarixinə maraq daha da gücləndi, yeni-yeni baxışlar yarandı.

Dünyanı mənimsəmək üçün Avropanın istifadə etdiyi bütün elm və texniki bilikləri yaratmış sönmüş Şərq xalqları sanki tarixdən kənar qalmışdı. Yenidən bəşəri tarixdə aktiv iştirak üçün özünübərpa prosesi keçirmədə idi ki, prosesin başa çatmasına, tamamlanmasına Avropa müstəmləkəçiləri imkan vermədi. Rasionalizmini mənimsədiyi Şərqin irrasionalizmini onu özü ilə birlikdə gərəksiz anlayışa çevirdi, beləliklə dünyanın birtərəfli, rasional - ancaq gündəlik praktiki fayda verən tərəfi tədqiqata cəlb olunub mənimsənilməyə başlandı ki, bununla da dünyanın, tarixin mövcudluğu və inkişafının maddi tərəfi qiymətləndirilir, mənəvi - irrasional tərəfi qiymətləndirilmir, bəzən gərəksiz, marksistlər isə ziyanlı baxış kimi qiymətləndirirdi. Beləliklə dünyanın, insanlığın, tarixin birtərəfli qiymətləndirilməsi və təsvir edilməsi prosesi başladı ki, bununla da vahid dünyanın ayrı-ayrı ocaqlarında ideoloji, mənəvi, siyasi qarşıdurmalar başladı.

**Dünyada başlayan bu yeni ziddiyyətlərin səbəblərini insanı , insanlığı, bəşər tarixini düzgün qiymətləndirməmədə görən az da olsa filosof və tarixçilər də yetişirdi ki, onlardan biri də Karl Yaspers idi. O, tarixə və tarix elminə yeni baxış gətirdi. Onun bu sahədə əsas ideyaları "Tarixin mənası və təyinatı"** əsərində ifadə olunmuşdur. K.Yaspersin ən böyük xidmətlərindən biri - Avropada irqçilik və müstəmləkəçilik tüğyaan etdiyi bir dövrdə o, bəşəriyyətin vahid kökə və ümumi məqsədə malik olmasını əsaslandırır (15, 40).

K.Yaspers insanlıq tarixini tarix öncəsi insanlığın ilkin formalaşma mərhələsi, - e.ə. 800-200-ci illəri əhatə edən 600 illik mehvər - keçid dövrü və ondan sonrakı özünəməxsus insanlıq tarixi kimi qiymətləndirərək yazır: "Mehvər dövrü e.ə. 800-200-cü illərdə qədimin böyük mədəniyyətlərində onların özlərində və ya təsir orbitlərində **bəşəriyyətin mənəvi əsası formalaşır"** (15, 42, 69).

K.Yaspers tarixöncəsi ilə tarixin fərqini aşağıdakı kimi göstərir: " Obyektiv olaraq tarixöncəsi - müxtəlif dəyişikliklər axınıdır, ancaq mənəvi mənada bu hələ tarix deyil, sanki tarix yalnız o yerdə yaranır ki, orada onun dərki, ənənə, sənədləşmə, öz köklərinin və baş verən hadisələrin mənalandırılması var. Tarix ənənə varisliyi olmayan yerlərdə də olması barədə təsəvvür olmuşdur və ya olmalı idi də, amma bu xurafatdan başqa bir şey deyildi" (15, 75).

K.Yaspers əsaslandırırdı ki, bioloji varlıq olan, heyvanlar aləmindən ayrılan insan, onun yaratdığı toplum və bütün yaradıcılıq formaları mənəvi münasibətdir, mənəviyyat qanunları ilə yaradılır. Onun inkişafı və yaşamı əcdadı bioloji varlıqdan fərqli olaraq mənəvi yaddaş vasitəsilə gələcək nəslə ötürülməklə yaşamını davam etdirir. Toplumun varlığının vəhdətdə vahid orqanizm kimi təzahür edən yaradıcılığı onun tarixidir, mənəviyyat qanunları ilə yaradılır. Odur ki, milli tarixlər özünü mənəviyyat hadisəsi kimi göstərir, onun mövcudluğu, vəhdət halına gətirdiyi insanların inam və etiqadları, adət-ənənələri, dəyərləri, dil və dini, folklor və mifologiyası və s. vasitəsilə yaşayır. Milli-mənəvi tarix, xalqın vəhdətini, birliyini yaradan münasibətlər sistemindən başlıca olaraq inam və etiqaddan, adət-ənənələrdən, dəyərlərdən ibarətdir.

İnsanlığı yaradan səbəbləri kəşf etmək əvəzinə proletarcasına insanın meymundan əmələ gəlməsini deyənlərə K.Yaspers sərt və qəti cavab verərək yazdı: "... son nəticədə məlum ola bilər ki, insan meymundan yox, daha çox meymun insandan əmələ gəlmişdir" (14, 624).

K.Yaspers insanlığı yaradan səbəblərin kəşfini bəşərin obyektiv qiymətləndirilməsinin və tənzimlənməsinin zəruri şərti kimi qiymətləndirirdi. Milli tariximizi yaradacaq yeni tarixçi nəsli yetişdirmək zərurətini nəzərə alıb K.Yaspersin müddəaları həcmcə böyük olsa da, ona ixtisarsız, ümumiləşdirməsiz təqdim etməyi münasib bildim.

O, deyir: "İnsanın ilk oluşması indiyədək bizim üçün tam əlyetməz, anlaşılmaz olan ən dərin sirdir... Hətta "İnsan nədir? sualına qəti, qanedici cavab da bizə bəlli deyil. Ona biz tam bitkin cavab verə bilmərik. Biz, əslində, insanın nə olduğunu bilmirik və bu, bizim insan varlığının mahiyyətinə də aiddir. İnsanın tarixöncəsi və tarixdə oluşması barədə aydın təsəvvür həm də insan varlığının məğzi haqda aydın təsəvvürdür" (15, 84).

O, şərhinə davam edərək yazır: "Tarixöncəsi tərəfindən idrakımıza qarşı irəli sürülən iddialar ifadəsini o suallarda tapır ki, onlara çətin ki, cavab verilə bilsin. Biz haradan gəlmişik? Tarixin sübhündə kim idik? Tarixədək hansı imkanlar olmuşdur? Onda **hansı həlledici hadisələr - insana** insan olmağa, tarixə malik olmağa imkan verən hadisələr baş vermişdir? O zaman "əzəli kəşflərin" bizdən gizli bəsirətlərin hansı dərinlikləri mövcud olmuşdur? Tarixi zaman əvvəlinə artıq formalaşmış hansı dillər və miflər yaranmışdır?..

Aldığımız bütün cavablar fərziyyədən başqa bir şey deyil" (15, 79).

Zərurəti dərindən anlatmaq üçün K.Yaspers tarixi hadisələr fonunda şərhini davam etdirir: "Biz tarixin nə qurucu məqamları, nə də mənəvi oluşmasının gedişi barədə bir şey bilmirik, bizə yalnız nəticələr məlumdur. Və bu nəticələr əsasında biz çıxarışlar edirik. Biz sual veririk ki, insanın yaratmaqda olduğu aləmdəki **insana çevrilməsində** mühüm olan nə olmuşdur; təhlükəli vəziyyətlərdə, **mübarizəsində qorxu və mərdliyi rəhbər** tutaraq, o, hansı kəşflər etmişdir; cinslərin özarası münasibətləri, həyata və ölümə, ata və anaya münasibət necə formalaşmışdır?" (15, 91).

Son müddəasında o, sanki bu zərurəti dərk etmək istəyənləri istiqamətləndirirmiş kimi yazır: "İnsanın sıçrayış etməsinin səbəbi nədir? Bunu edərkən o,bunun nəyə gətirib çıxaracağını dərk etmir və buna can atmırdı. Onunla nəsə baş vermişdir. Bütün başqa canlı məxluqatlar kimi o, məhdudluğu dərəcəsində məxsusiliyində bitkin deyil, əksinə, o imkanlarına görə açıq, mahiyyətinə görə qeyri-bitkin və tamamlana bilməyəndir. İnsanın mayasına əzəli qoyulmuş, artıq tarixöncəsində tarixin rüşeymi kimi şəksiz fəaliyyət göstərmiş bir şey başlananda şiddətlə tarix üzə çıxdı" (15, 99).

Bir Azərbaycan xalq deyimində deyildiyi kimi, insanlığı yaradan şeyin adı sanki K.Yaspersin dilinin ucunda idi. K.Yaspersin bu ifadəsini 1949-cu ildə nəşr etdiyini nəzərə alsaq, bəşəriyyət insan və insanlığı yaradan varlığın kəşfi üçün 57 il gözləməli oldu.

Tarix elmini yetərincə təkmilləşdirmiş L.Qumilyov K.Yaspersin "Tarixin mənası və mahiyyəti" əsərinin bəzi məqamlarını, xüsusən ekzistensializmini tənqid etsə də, yüksək qiymətləndirir, lakin onun mehvər dövrü bölgüsünü qəbuledilməz hesab edir (16).

Əsərindən göründüyü kimi, K.Yaspersin ideyaları bəşərə, insanlığa məhəbbətdən doğurdu. O, heç bir spekulyasiyaya yol vermədən bəşəriyyətin gələcəyi naminə insanlığı doğuran əsasın tapılmasının zəruriliyini göstəriridi.

Azərbaycan tarixşünaslığında bu sahədə boşluğu nəzərə alıb problemə kiçik bir ekskur edirik. İnsan əcdadının "mayasına əzəldən qoyulmuş" "tarixin (insanın - X.X.) rüşeymi" zaman-zaman fəaliyyət göstərmiş, nəhayət e.ə. 35-ci minillikdə insan əcdadı heyvanlar aləmindən ayrılma yoluna istiqamətlənmiş, o, sürü icması həyat tərzindən qəbilə icmasına keçmiş, dilin, nitqin yaranması sayəsində dünyanı görmə və dərk etmə yolu tutmuş, əmək alətləri hazırlamaqla əşyalara təsir etmə, ona yeni forma verməklə ondan yeni məzmunda istifadə kimi yaradıcılıq göstərmiş, nəhayət qayalara çəkdiyi rəsmləri ilə arzuları və dünyagörüşlərini ifadə etməklə yaradıcılığa böyük coşqularını bildirmiş, mezeolit dövründən praktiki yaradıcılıq göstərərək ox və yayı, qayıq və gəmini ixtira etmiş, heyvanları əhliləşdirmək, bitki toxumlarını əkməklə istehsal təsərrüfatına keçid etmişlər. İlk paleolitdən başlayaraq mezeolit, neolit, eneolt mərhələsində insan əcdadı instiktiv münasibətdən şüuurlu insani münasibətlərə, həyat tərzinə doğru keçid, quruculuq, yaradıcılıq mərhələləridir. İnsan kimi mənəvi birgə yaşayışın bütün qaydalarının dəyərlərin, adətlərin, etiqadların hər birinin bünövrəsi bu mərhələdə qoyulur, təkmilləşir, yeniləri yaranır, mənəvi təkmilləşmə və yaradıcılıq davam edir.

İstehsal təsərrüfatına keçid ardıcıl olaraq ona yeni həyat tərzi aşılamış, qarşılıqlı münasibətləri instiktiv münasibətlərdən yeni mənəvi şüurlu münasibətlərə, quruculuğa keçirmiş, yeni-yeni əmək sahələri, sənət sahələri, ictimai əmək bölgüsü, ona müvafiq **qarşılıqlı mənəvi münasibətlər, inamlar, qaydalar, adət və dəyərlər yaranırdı, yeni ailə, qohumluq, idarəçilik münasibətləri yaranır, nəhayət insan kimi yaşamağın, ilkin dəyərlərin, inam və etiqadların, adət-ənənələrin yaranıb sabitləşməsi ilə nəhayət insan şüurunun, təfəkkürünün təsiri altında ilk refleksiya baş verir, etnik mənlik şüuru yaranır, insan özünü bütün başqa canlılardan qəti surətdə ayırır. Ataxaqanlığı adlandırılan bu mərhələ ilə insanlıq tarixi başlayır.** Ataxaqanlıq çağından toplumda insani münasibətlər - inam və etiqad, adət-ənənə, dəyərlər, nağıl, mif, əfsanə, rəvayət və b. janrlar vasitəsilə tarixlərini tərənnüm edib yaradır və gələcək nəsillərin yaddaşına ötürməklə yaşadırlar. Bu proses dastan, xüsusilə qəhrəmanlıq dastanları yaratmış xalqlarda daha sürətlə inkişaf edir.

Ataxaqanlığın ilkin çağından istifadə olunan, sayəsində yaşanılan, tənzimlənən münasibətlər - inam və etiqad, dəyərlər, adət-ənənələr, dinlər və s. münasibətlər üst paleolitdən - e.ə. 35-ci minillikdən - e.ə. IV minilliyin ortalarına - ataxaqanlığa qədər formalaşmışdır ki, bu haqda tarixşünaslıqda ya bəhs olunmur, bəzən bəhs olunur ki, bunda da mənəvi sistemdə nəyin nədən hasil olması, nəticəni doğuran səbəblər məlum olmur, bütünlükdə tarixən sirri olaraq qalır.

Qəbilə tayfa münasibətləri başa çatıb, sinfi cəmiyyətin formalaşması ilə guya cəmiyyətin idarəçiliyi şüurlu başçıların ixtiyarına, səlahiyyətinə keçməsi ilə insanlığın məruz qaldığı ən böyük çətinlik, ziddiyyərlər onun insanlıq qanunlarına zidd həyat tərzinə, yaşama məcbur, məhkum edilməsi olmuşdur. Belə zorakılıqlar adətən inqilablarla nəticələnirdi. İnqilabdan sonra idarəçiliyin bir qədər yumşaldılması insanlıq qanunlarının kəşfi kimi qiymətləndirilirdi. Ədalət naminə bu düşüncədə az da olsa həqiqət var. Lakin min illərlə baş verən inqilabların heç biri onun təməlinə qoyulan mənəviyyat qanunları ilə yaşamağa keçirən və yaşadan "maya"nın nədən ibarət olduğunu açıqlayıb bəşəriyyətə çatdıra, yolunda əngəl olan maneələri məhv edə bilmədi.

***(Davamı 7-ci səhifədə)***

# MƏNƏVİ DƏYƏRLƏR MİLLİ VARLIĞIN ƏSASIDIR

*(Əvvəli 6-cı səhifədə)*

**"Kommunizm quruculuğunun əxlaq kodeksi" ilə yeni nəsli tərbiyə edən, öncə vətənini SSRİ-də, sonra bu təcrübədən istifadə edib dünyada maddi nemətlərin sel kimi axacağı, bütün insanların qardaş kimi, bərabər yaşayacağı kommunizm vəd edən ölkədə artıq üç il idi ki, ermənilər "böyük qardaş" adlandırılan rus ordusunun himayəsi ilə azərbaycanlıları doğma yurdları İrəvan mahalından qovurdular, dağlıq Qarabağdan da azərbaycanlıların qovulması başa çatmaq üzrə idi.** Dövlətin bu hərəkətinə etiraz edən Bakı şəhəri əhalisi üzərinə 20 yanvar 1990-cı ildə dövlət tank, beteer, hava və dəniz donanması, müxtəlif qoşun növlərindən ibarət ordu yeritdi, xalqın haqq səsini qan içində boğdu.

Xalqın önündə olmalı olan Azərbaycan rəhbərliyi bir nəfər kimi imperiyaya sədaqət göstərdi, onun yanında oldu; xalqın önündə olacağı düşünən tarixçilər də tək-tək şəxslər istisna olmaqla imperiyaya sədaqət göstərdilər. **İmperiyanın kütlə adlandırdığı böyük çoxluq tarixdə heç bir xalqın etmədiyi mütəşəkkilliklə imperiya ordusuna və gizli qüvvələrinə müqaviməti davam etdirdi, Bakının ən uca yerində rus imperiyasının qələbə simvolu S.M.Kirovun heykəlini dağıdıb yerində vətən uğrunda həyatını qurban verən qəhrəman Şəhidləri dəfn etdi və onlara əbədi qəhrəmanlıq simvolu, sönməz yanar məşəl ucaltdı, mübarizəsini dövlət müstəqilliyinə qədər davam etdirdi.**

Bu günlərdə K.Yaspers daha dözə bilmir, tarixin özündən sualına cavab istəyirdi: "Biz sual veririk ki, insanın yaratmaqda olduğu aləmdəki insana çevrilməsində mühüm olan nə olmuşdur; təhlükəli vəziyyətlərdə, mübarizəsində qorxu və mərdliyi rəhbər tutaraq o, hansı kəşflər etmişdir?" (15, 91).

Tarix susurdu, yoxsa etdiyinə cavab verə bilmirdi? Sanki bu qədər yaranışın, inkişafın qanunundan bəhs edən, milyon illərin quruculuğundan bəhs edən filosof, tarixçi elmlər doktoru, professor, akademiki o yetişdirməmişdirmi?

Təbii ki, bu sualı çox insan ən azı özü üçün cavablandırmaq istəyirdi. Amma... Bakı Dövlət Universitetinin Psixologiya fakultəsinin birinci kurs tələbəsi Şükran Dədəyev bu sualları cavablandırmaq üçün qətiyyətli addım atır. İnsanla bir çox elm məşğul olsa da, insanlığın mahiyyəti, onun rəftar və davranış qaydalarından bəhs edən elm sahəsi Psixologiya elmi idi. Odur ki, o, ixtisas seçdiyi Psixologiya elmində axtarış aparır. Məlum oldu ki, dünyada və ölkədə Psixologiya adlandırılan elm deyil, cəfəngiyyatdır. Elmə bir qədər də ciddi yanaşdıqda, onunla bağlı daha məyusedici vəziyyət, problem gördü. "Elə bil (Azərbaycanda - X.X.) hər şey elmi fəaliyyətin zəifləndilməsinə və dayandırılmasına kömək edirdi, şərait yaradırdı" (3, 19).

Sovet məkanında Psixologiya elmini axtarmaqdan əlini üzən gənc Ş.Dədəyev "elmin yüksək səviyyədə inkişaf etdiyi Qərb və ABŞ Psixologiyasına üz tutur və məlum olur ki, bu ölkələrdə heç Psixologiya elminin predmeti məlum deyil. Vəziyyətə təəssüflənsə də, özü - axırıncı kurs tələbəsi K.Yaspersin bəşəriyyətin gələcəyi naminə inam yaradan "maya"nın axtarışına başlayır, Psixologiya elmini yaratmağa qərar verir. **Beləliklə, 1995-ci ildə Bakı Dövlət Universitetinin son kurs tələbəsi Ş.Dədəyev İnsan orqanizmində Psixikanın müəyyənləşdirilməsi - yeni fundamental Psixologiyanın əsaslarının yaradılması üçün konkret fəaliyyətə keçir,** "elmlər sistemində ilk dəfə olaraq Psixikanın insan orqanizmində yerini, daxili strukturunu, fəaliyyət xüsusiyyətlərini müəyyənləşdirməklə, öyrənməklə yeni fundamental Psixologiyanın əsaslarını yaratmağa real metodiki imkanlar yaratdı. Nəticədə, ilk dəfə olaraq həqiqi formada Psixikanı Psixologiya elminin və Neyroelmlər sisteminin daxilinə nüfuz edərək onu Psixologiyanın və Neyroelmlər sisteminin mövcud olan real "tədqiqat probleminə çevirdi".

Psixika indiyə qədər sırf ruhi, subyektiv mahiyyətli mövcudluq kimi qəbul olunmuşdur. Elmlər tarixində ilk dəfə olaraq biz Psixikanı həm də obyektiv bioloji və sosial mövcudluq, insan orqanizmində yeri və daxili strukturu olan bir orqan kimi öyrənməyə çalışmışıq (3, 23, 27-28) deyən Ş.Dədəyev neft Bakısında "Şəhidlər Xiyabanında" məhəbbət dünyası düşmən gülləsi ilə əbədiyyətə gömülmüş gənclərin baxışları altında insan yaradan, "maya"nı görən "Yeni fundamental Psixologiyanın əsasları"nı (B., 2007) yaratdı.

Ş.Dədəyevin sözləri ilə desək "problemə kiçicik bir yanaşma ilə Psixologiya insanı öyrənən elmlərin ən fundamentalı və ən böyüyü olduğu aşkarlandı. Çünki bu fundamentallığın əsasında insanın birbaşa ruhi, biopsixoloji və biofiziki varlıq olması durur. Bundan əlavə, insan öz Psixikasının, Psixologiyasının subyektiv məhsuludur (3, 352).

Nəhayət növbə çatır "Yeni fundamental Psixologiya"nın kəşfinin sübutuna. Bütün sahələrdə elmi kəşfin sübutu çətindir, ictimai elmlərdə isə cəhənnəm əzabıdır. Beynəlxalq Psixologiya cəmiyyətləri ilə yazışmasından göründüyü kimi Ş.Dədəyev buna da psixoloji və elmi cəhətdən hazır idi. Ş.Dədəyev "Yeni fundamental Psixologiyanın əsasları"nı sübut etmək üçün beynəlxalq konfrans və konqreslərə təqdim etmək qərarına gəlir, belə də edir. Təbii ki, beynəlxalq Psixologiya təşkilatlarına, kadrlarına onların Psixologiya elmi adı altında tədqiqatlarının heç bir elmi mahiyyət daşımadığını sübut edən "Yeni fundamental Psixologiyanın əsasları"n meydana çıxması gözlənilməz olduğu qədər də qəbul edilməz idi. Ş.Dədəyevin yeni fundamental Psixologiyanı yaratması haqqında layihəsini 2004-cü ildə Çində keçirilən Psixologiya üzrə Beynəlxalq Konqresə göndərir. Gözlənilən dramatizm başlandı, hətta bəzi ABŞ psixoloqları siyasi şantaja əl atdılar. Ş.Dədəyev ABŞ psixoloqlarına həqiqəti görməkdə dözümlü olmağı tövsiyyə edərək yazır: "...Mən həmişə Amerikadakı həmkarlarıma bu neqativ xüsusiyyətlərdən əl çəkməyi məsləhət görmüşəm və onlara bütün təhliledici məktublarımda bu haqda yazmışam. Paralel olaraq onların illər boyu məşğul olduqları psixoloji problemlərdən birdən-birə əl çəkmələrinin çox çətin və ağır olduğunun mən tərəfdən hörmətlə başa düşüldüyünü onların nəzərinə çatdırmışam. Lakin təbii elmi-tarixi proseslərə, perspektivli beynəlxalq elmi nəzəriyyələrə və həqiqi fundamental elmi nəticələrə hörmət etmək, onları qeyd-şərtsiz qəbul etmək, harada yaşamasından asılı olmayaraq hər bir elm adamının borcudur" (3, 356).

"Əgər siz Psixikanı öyrənməkdə çətinlik çəkirsinizsə və yaxud onun əzablı, mürəkkəb tədqiqindən qorxursunuzsa, bu o demək deyildir ki, siz, biz, bütün dünya Psixikadan - Psixologiyanın fundamental həqiqi predmetindən əl çəkməlidir. Bu elmi cəfəngiyyata son qoymağın vaxtı gəlib çatmışdır", "Sovet" və "qərb" psixologiyası kimi primitiv və səviyyəsiz siyasi-elmi məfhumlardan əl çəksinlər" (3, 355).

"Keçmiş sovet psixologiyasında xüsusilə də XX əsrin ikinci yarısında Psixika ən çox öyrənilən problem kimi nəzəri cəlb edib. Lakin bu "öyrənilmə" çox qəribə tədqiqat mahiyyəti daşıyıb. Məsələn, heç vaxt heç bir sanballı elmi tədqiqatda Psixikanın mahiyyəti, yerləşdiyi məkan və fəaliyyət strukturu haqqında ətraflı real elmi məlumatlar verilməyib. Elə ona görə sovet psixoloqlarının əksəriyyəti elə biliblər ki, onlar gecə-gündüz haqqında oxuduqları, mülahizələr dinlədikləri Psixika tamamilə tədqiq edilib və onun ətraflı öyrənilməsinə belə ehtiyac yoxdur. Bu cür gülünc vəziyyət sovet psixoloqlarının Psixikaya tam materialist utopik yanaşmalarının real nəticəsi idi" (3, 359).

"Qərb (ABŞ) psixologiyasında isə ümumiyyətlə, Psixika haqqında danışmaq belə istəmirlər. Onlar ümumiyyətlə, Psixika problemini və onun mövcudluq amillərini rədd edirlər. Bu da çox qəribə ağlasığmazlıqdır. Predmeti psixika olan Psixologiya elmini öyrənirlər, lakin Psixikanı tədqiq etmək, hətta onun haqqında danışmaq belə istəmirlər".

"...Deməli qəribə bir elmi şərait yaranır. Keçmiş sovet psixologiyasında (müasir rus psixologiyası, əksər keçmiş sovet respublikalarında) psixoloqlara, elmə məlum olmayan Psixikanı tədqiq edərək Psixologiyanı öyrənirlər. Qərbdə (ABŞ-da) isə psixoloqlar öz fundamental ixtisas predmetlərini yox, zehni davranışı tədqiq edərək, kütləvi eksperimentlər keçirərək Psixologiya elmi ilə məşğul olurlar. Hansı ki, zehni davranış Psixikada yaranır və oradan da idarə olunur. Belə olan halda görəsən, Psixikanı öyrənmədən Psixikada yerləşən zehni, davranışı öyrənmək mümkündürmü?" (3, 359-360).

Nəhayət **"Yeni fundamental Psixologiyanın əsasları"nı yaradan Ş.Dədəyev** tarixdə ilk dəfə Psixologiya elminə beynəlxalq səviyyədə qəbul olunan tərif verir: **"Psixologiya Psixikanın yaranma, formalaşma, fəaliyyət funksiyalarını və inkişaf proseslərini, insanın mövcudluq və yaşamaq xüsusiyyətlərini öyrənən elmdir"** (3, 364).

Psixologiya elminin genişlənməsi, ümumiləşməsi bütün elmlər sisteminə müsbət təsir edəcək. Müasir dünya Psixologiyasının dinamik inkişafı təbii prosesdir. Çünki **Psixologiya bütün elmlər sistemini əhatə edən universal sistemli bir elmdir. Yəni Psixologiya bütün elm sahələrinin daxilində mövcuddur və onların subyektiv mahiyyət kəsb edən mühüm tərkib hissələrindən biridir. Harada insan varsa orada Psixika, psixoloji problemlər və deməli Psixologiya var. Deməli, Psixologiya insanların daxilində (Psixikalarında) və onların öyrəndikləri, məşğul olduqları bütün elm sahələrinin daxilindədir** (3, 364).

Yeni fundamental Psixologiya yaratması haqqında Ş.Dədəyevin 2004-cü ilin yayında Çində keçirilən Psixologiya üzrə Beynəlxalq Konqresə göndərdiyi iki layihə ABŞ və Qərb psixologiyasında çaşqınlıq yaradıb onları həyəcanlandırsa da, layihə ilə ciddi tanışlıqdan sonra onun bütün elmi müddəalarını qəbul etdilər, Psixologiya elmləri üzrə Beynəlxalq İttifaqın Prezidenti, Psixologiya professoru C.Bryus Overmyer və başqa yüksək rütbəli ABŞ psixoloqlarının müsbət rəyi ilə Ş.Dədəyevin "Psixika: insan orqanizmində psixikanın müəyyənləşdirilməsi və öyrənilməsi", "Yeni fundamental Psixologiyanın əsasları" əsəri dünya psixoloq və oxucuları üçün ingiliscə, Azərbaycan oxucusu üçün Azərbaycan dilində 2007-ci ildə nəşr olundu. Nəhayət ki, ictimai elmlər sahəsində Qərb və ABŞ mifinə son qoyuldu, bəşəriyyət insanlığın əsl mahiyyətini ifadə edən "Yeni fundamental Psixologiyanın əsasları"nı əldə etdi. K.Yaspersin insanlığın "mayası" kimi axtardığı insanı bioloji varlıqdan mənəvi varlığa keçirən "Psixika" Azərbaycan türkü Şükran Dədəyev tərəfindən kəşf olundu.

Dünyada Psixologiya elminin zirvələri alimlərin rəyincə "Yeni fundamental Psixologiyanın əsasları" əsəri ilə Ş.Dədəyev "ambisiyalı bir vəzifəni üzərinə götürmüşdür". Bu ambisiya mahiyyət etibarilə insanlığın ruhi-mənəvi cəhətdən elmi tənzimlənməsidir. Belə alim yetişdirmək hər millətə qismət olmur. "Azərbaycan elmini dünyada ən yüksək səviyyələrdə layiqincə təmsil etməyə çalışan" (3, 24) Ş.Dədəyevin sözləri ilə desək "Psixologiya bütün elm sahələrinin daxilində mövcuddur". Odur ki, onun Azərbaycanın bütün elm sahələrinin gənc alimləri, aspirant, magistrləri ilə görüşü və mühazirələrini faydalı hesab etmək olar, ictimai elm sahələrində bu vacibdir.

**Məqsədimiz** "Yeni fundamental Psixologiyanın əsasları" əsərinə rəy yazmaq deyil, **tədqiqatımızla bağlı insanı yaradan mənəvi sistemin nüvəsi kimi çıxış edən mənəvi-sosial dəyərlərin mənəvi tənzimləyicisi funksiyası haqqında elmi-nəzəri və praktiki müddəalarından istifadə etməklə Azərbaycan xalqının milli-mənəvi dəyərlər sisteminin mövcudluğu və tədqiqi vəziyyətini araşdırmaqdır. Odur ki, onun Psixi varlığın mövcudluq** forması kimi və insan Psixikasının formalaşması haqqında mülahizəsini çox qısa öz deyimində xülasə ilə kifayətlənəcəyik.

**Bütün canlılar (insanlar və heyvanlar) Psixikaya malikdirlər.** Ümumiyyətlə, bütün canlıları ilk növbədə **"canlı" kimi eyniləşdirən** ən ali xüsusiyyət amili olaraq mövcud olmaq, yaşamaq və öz cinsinə uyğun həyat tərzi xüsusiyyətləri bəxş edən Psixikalara malik olmalarıdır.

Bütün canlıların Psixikaları biopsixoloji və sosial mahiyyət daşıyır. Bu Psixikalar onların orqanizmlərini, fəaliyyətlərini onların həyat şəraitlərinə və cinslərinə, növünə uyğun idarə edirlər. Burada qanunauyğun məntiqi bir nəticə meydana çıxır. Dünya və təbiətin mövcud olmaq, inkişaf qanunauyğunluqları nəzərə alınmaqla bu eyni strukturlu və mahiyyətli Psixika ilə canlılar elə eyni bir möhtəşəm qüvvə tərəfindən yaradılıb. Fərq yalnız bu canlıların növündə və yaşayış tərzindədir. Bu da canlıların dünyada mövcud olmaq və yaşamaq qanunauyğunluqlarına əsaslanır. Heç cür ola bilməz ki, dünyanın və insanların mövcud olması, yaşaması təsadüfən, sistemsiz idarə olunmaz bir halda olsun. Psixika insanı necə idarə edirsə, insanlar da, dünya da, ulduzlar da, planetlər də elə bu cür idarə olunur (3, 326).

*(Davamı var)*